# YADDAN ÇIXMAYAN GÜN



**1992-ci ilin 26 fevralı. Qanlı və qadalı bir gün. Xocalıda ermənilər yüzlərlə qocanı, qadını, uşağı qətlə yetirdilər, "uf" demədən insanları güllə-boran etdilər, bəzilərini də əsir götürdülər. Şəhid olmuş xocalılar öz torpaqlarını qanları ilə suvardılar. O gün Azərbaycan tarixinə erməni vəhşiliyinin qurbanı olan bir dövr yazıldı. Və o an heç vaxt, heç zaman bu xalqın yadından, daha doğrusu, qan yaddaşından çıxmayacaq.**

Xocalı faciəsinin anım günü münasibətilə respublikamızan çox yerində tədbirlər keçirilib. Bu tədbirlərdən biri də Yol Patrul Xidməti Alayının 1-ci tağımında gerçəkləşib. Ümumiyyətlə, hər il bu faciənin ildönümü 1-ci tağımın əməkdaşları tərəfindən yad edilir. Onu da qeyd edək ki, Yol Patrul Xidməti Alayının 1-ci tağımının komandiri, polis mayoru Ürfət Şükürov Xocalıdandır. Xocalı faciəsi zamanı Ürfət Şükürov da neçə-neçə əzizini itirib.

Birinci tağımda Xocalı faciəsinin qurbanları yenidən xatırlanıb. Bu məqsədlə tağımın iclas salonunda geniş tədbir keçirilib. Tədbirdə Xocalı faciəsinin iştirakçısı Zahid Cabbarov, Abşeron rayon Ceyranbatan qəsəbəsinin 1 nömrəli tam orta məktəbin tarix müəllimi İmaməli Quliyev, Yol Patrul Xidməti Alayının qərargah rəisinin müavini, polis kapitanı Elnur Rəhimov, "Avtosferaz" saytının baş redaktoru Elməddin Muradlı və eləcə də 1-ci tağımın əməkdaşları iştirak edirdilər. Görüşü giriş sözylə tağım komandiri, polis mayoru Ürfət Şükürov açaraq iştirakçıları onlara təqdim etdi. Və bir qədər də Xocalı faciəsi ilə bağlı söhbət açdı. Dedi ki, bu bizim ən ağrılı yerimizdi. Vaxt gələcək biz yenidən Xocalıya qayıdacaq, öz qisasımızı düşməndən alacağıq, vətənimizdə böyük quruculuq işləri görəcəyik. Hörmətli prezidentimiz cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində biz həmin ideyaları həyata keçirəcəyik.

Anım mərasimində çıxış edən, əslən Xocalıdan olan Zahid Cabbarov həmin qanlı günü xatırladı. Bildirdi ki, biz üç gün mühazirədə qaldıq. Xocalını darmadağın edən 366-cı alayın ağır texnikalarına qarşı avtomatla vuruşduq və insanların çoxunu xilas etdik. Mən özüm də döyüşlərdə iştirak etmişəm. Amma biz ermənilərin uşaqlarını, qocalarını, qadınlarını güllələməmişik. Onlar isə bizim körpə uşaqları süngüdən keçirmək üçün hansı murdar addımı desən atdılar. Ancaq bu qan heç vaxt yerdə qalmayacaq.

Abşeron rayon Ceyranbatan qəsəbəsindəki 1 nömrəli tam orta məktəbin tarix müəllimi İmaməli Quliyev ermənilərin tarixi kökü olmamalarını və Qafqazda gəlib məskunlaşmalarını real faktlar əsasında anım iştirakçılarının diqqətinə çatdırdı. İmaməli müəllim qeyd etdi ki, dünyanın heç bir yerində hər hansı xalqa qarşı belə vəhşilik edilməyib. Amma bunu ermənilər etdilər və iç üzlərini də açdılar. Tarix bir daha şahid oldu ki, onlar hansı sifətin, hansı qəlbin sahibidilər. Və bu gün biz orta məktəbdə şagirdlərə dərs keçərkən ermənilərin belə alçaq xislətlərini və qaniçənliyini faktlar əsasında söyləyirik. Şagirdlərimiz bir daha əmin olurlar ki, ermənilər özlərini dünyaya məzlum və yazıq xalq kimi təqdim etsələr də, çox qaniçən, zülmkar və qəddar bir insanlardı. Və biz də bu qəddar insanlarla həmişə mübarizə aparmalıyıq və aparacağıq.

Birinci tağımın komandiri Ürfət Şükürov anım mərasiminə yekun vuraraq bir daha bildirdi ki, Xocalı şəhidləri və Xocalı torpağı heç vaxt azərbaycanlıların yadından çıxmayacaq. Əksinə, bu gün bizi bir daha yumuruq kimi birləşdirəcək və hörmətli Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz məqsədimizə doğru inamla addımlayacağıq.

**Anım mərasimi başa çatdıqdan sonra iştirakçılar Xocalı faciəsi zamanı həlak olmuş insanların ruhuna açılmış ehsan süfrəsinə dəvət olunmuş, Quran oxunmuş və onların ruhuna dualar edilmişdi.**







**Faiq QİSMƏTOĞLU**



2019.-S.5.